TƏSDİQ EDİRƏM:

AzTU-nun rektoru

V.M.Vəliyev

2023-cü il

## Azərbaycan Texniki Univesitetinin Elmi Şurasının Reqlamenti

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Texniki Universitetinin (AzTU) Elmi Şurasının Reqlamenti (Reqlament) Azarbaycan Respublikası Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli 792 saylı əmri ilə təsdiq olunmuş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"yə, "Elm haqqında", "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 2019-cu il tarixli 7 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin nümunəvi nizamnaməsi"nə və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

1.2. Reqlament AzTU-nun Elmi Şurasının (Elmi Şura) səmərəli fəaliyyətinin təşkili, Elmi Şuranın fəaliyyətində demokratik prinsiplərin, aşkarlığın və şəffaflığın təmin olunması, təhsil sahəsində dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı maraqlı tərəflərin mövqeyinin nəzərə alınması məsələlərini tənzimləyir.

### 2. Elmi Şuranın strukturu

2.1. AzTU-nun Elmi Şurası sədr, sədr müavini, katib və digər 48 (qırx səkkiz) üzvdən ibarətdir.

2.2. Elmi Şura üzvlərinin səlahiyyət müddəti 3 (üç) ildir.

2.3. Elmi Şuranın tərkibi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiqlənir.

2.4. AzTU-nun rektoru Elmi Şuranın sədridir.

2.5. Elmi Şuranın sədri:

2.5.1. Elmi Şuranın fəaliyyətinə rəhbərlik edir;

2.5.2. dövlət və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları ilə münasibətlərdə Elmi Şuranı təmsil edir;

2.5.3. Elmi Şuranın fəaliyyətinin prioritet istiqamətlərini müəyyənləşdirir;

2.5.4. Elmi Şuranın iclaslarına sədrlik edir.

2.5.5. Elmi Şuranın sədri Şuranın qərarlarının icrasına nəzarət edir və Şuranın üzvlərinə qəbul olunmuş qərarların yerinə yetirilməsi barəsində məlumat verir.

2.6. Elmi Şuranın sədr müavini:

2.6.1. Elmi Şuranın səmərəli fəaliyyətinin təmin olunması üzrə Elmi Şura sədrinin tapşırıqlarını icra edir;

2.6.2. Elmi Şuranın sədri iclasda iştirak etmədikdə onu əvəz edir.

2.7. Elmi Şuranın katibi:

2.7.1. Elmi Şuranın cari fəaliyyətini təmin və təşkil edir;

2.7.2. Elmi Şura üzvlərinin fəaliyyətini əlaqələndirir;

2.7.3. Elmi Şuranın aktlarını aidiyyəti üzrə təqdim edir;

2.7.4. Elmi Şuranın kargüzarlıq işini təşkil edir.

2.8. Elmi Şura öz fəaliyyətinin təşkili üçün daimi və müvəqqəti orqanlarını (komitələr, komissiyalar, ekspert qrupları, işçi qruplar və s.) yarada bilər. Elmi Şuranın daimi və müvəqqəti orqanları Elmi Şuranın iclasında Elmi Şuranın üzvlərindən ibarət olmaqla formalaşır. Elm və Təhsil Nazirliyinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, ekspertlər, elmi təşkilatların, o cümlədən beynəlxalq təşkilatların nümayəndələri, ayrı-ayrı mütəxəssislər Elmi Şuranın daimi və müvəqqəti orqanlarının fəaliyyətinə ödənişsiz əsaslarla cəlb edilə bilərlər.

## 3. Elmi Şuranın iclasları

3.1. Elmi Şuranın işinin təşkili üzrə reqlamenti müzakirə edərək təsdiq edir;

3.2. Elmi Şura iclaslarını rübdə 3 (üç) dəfədən az olmayaraq keçirir.

3.3. Elmi Şuranın növbədənkənar iclasları Elmi Şura üzvlərinin yarıdan çoxunun və ya Elmi Şura sədrinin təşəbbüsü ilə keçirilə bilər.

3.4. Elmi Şuranın iclaslarının vaxtını, yerini və gündəliyinin layihəsini Elmi Şuranın sədri müəyyən edir. Bir qayda olaraq Elmi Şuranın iclasları tədris həftəsinin çərşənbə günü keçirilir və 3 (üç) saatdan çox olmayaraq davam edir.

3.5. Elmi Şuranın iclasının vaxtı, yeri və gündəliyinin layihəsi barədə məlumat iclasa azı 3 (gün) gün qalmış Elmi Şuranın üzvlərinə təqdim edilir.

3.6. Elmi Şuranın iclasları üzvlərinin 2/3 çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

3.7. Elmi Şuranın iclaslarına Elmi Şuranın sədri rəhbərlik edir.

3.8. Elmi Şuranın katibi iclasda iştirak etmədikdə, Elmi Şuranın qərarı ilə onun vəzifəsini Elmi Şura üzvlərindən biri həyata keçirir.

3.9. Elmi Şura təşkilati məsələlər üzrə qərarlar, digər məsələlər üzrə isə rəy və təkliflər qəbul edir.

3.10. Elmi Şuranın tədris, elmi və sosial məsələlərlə bağlı qərarları açıq səsvermə ilə, baş elmi işçilərin seçilməsi və geri çağrılması, professor, dosent və fəxri adların verilməsinə təqdimatla bağlı qərarları isə müəyyən olunmuş qaydada gizli səsvermə yolu ilə qəbul

edilir. Səslər bərabər bölündükdə, Elmi Şura sədrinin səsi həlledici sayılır.

3.11. Elmi Şura aşağıdakı məsələləri həll edir:

3.11.1. AzTU-nun beynəlxalq fəaliyyəti və xarici əlaqələri üzrə məsələlərə baxır və müvafiq qərar qəbul edir;

3.11.2. AzTU-nun kollektivinin daxili nizam-intizam qaydalarını təsdiq edir;

3.11.3. AzTU-nun fəaliyyəti ilə bağlı əsasnamələri, təlimatları, təhsilalanlar və təhsilverənlərin nizam-intizam və etik davranış qaydalarını və digər normativ xarakterli sənədləri təsdiq edir;

3.11.4. AzTU-nun strukturununun müəyyənləşdirilməsi, ona əlavə və dəyişikliklərin edilməsi, elmi-tədqiqat institutlarının, filialların, fakültələrin, kafedraların və AzTU-nun digər struktur bölmələrinin yaradılması, ləğvi, yenidən təşkili barəsində məsələlərə baxır, təkliflər verir və müvafiq qərar qəbul edir;

3.11.5. hər il AzTU-nun fəaliyyəti barədə rektorun hesabatını dinləyir;

3.11.6. elmi-pedaqoji və elmi kadrların hazırlanması, onların ixtisaslarının artırılması və yenidən hazırlanması məsələlərinə baxır, təlim-tərbiyə və elmi-tədqiqat işləri ilə bağlı məsələlər haqqında qərar qəbul edir;

3.11.7. elmlər doktorluğu dissertasiya işlərinin mövzularını və onların iş planını müzakirə edərək təsdiq edir;

3.11.8. fakültələrdə mütəxəssis hazırlığı, kafedraların elmi-tədqiqat fəaliyyəti və maddi-texniki təchizatı ilə bağlı məsələlərə baxır və müvafiq qərar qəbul edilir;

3.11.9. fakültələrin tədris, elmi-tədqiqat və tərbiyə işləri haqqında hesabatını dinləyir;

3.11.10. fakültə Elmi Şuralarının qərarları ilə bağlı etirazlara baxır və bu barədə yekun qərar qəbul edir;

3.11.11.tədris planlarının təsdiqi ilə bağlı qərar qəbul edir;

3.11.12. təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydalarına uyğun olaraq imtahanların təşkili qaydalarını müəyyən edir;

3.11.13. professor, dosent və baş elmi işçi elmi adlarının, eləcə də respublikanın fəxri ad və mükafatlarının, orden və medallarının verilməsi barədə müvafiq qurumlar qarşısında vəsatət qaldırır;

3.11.14. AzTU-nun fəxri professoru və doktoru adını verir;

3.11.15. AzTU-nun heyətində olan baş elmi işçiləri seçir və onların vaxtından əvvəl tutduqları vəzifələrdən azad olunmaları məsələsinə baxır;

3.11.16. elmi işə və pedaqoji fəaliyyətə görə AzTU tərəfindən mükafatların verilməsi barədə qərar qəbul edir;

3.11.17. professor-məsləhətçi vəzifəsi ilə bağlı məsələlərə baxır;

3.11.18. müeyyen olunmuş qaydada dərslik, dərs vəsaitləri, tədris-metodiki vəsaitlər, monoqrafiyalar və tədris proqramlarının nəşri üçün qərar verir;

3.11.19. məqsədli təqaüdlərin təyin edilmə qaydalarını qüvvədə olan normativlərə uyğun müəyyənləşdirir;

3.11.20. AzTU-nun fəaliyyəti ilə bağlı olan digər məsələlərə baxır və müvafiq qərar qəbul edir.

3.12. Elmi Şuranın iclasları müvafiq qaydada protokollaşdırılır.

3.13. Elmi Şura iclasının protokolu 2 (iki) nüsxədə tərtib edilir, Elmi Şuranın sədri və elmi katibi tərəfindən imzalanır və elmi katibdə saxlanılır.

## 4. Elmi Şura üzvlüyünə xitam verilməsinin əsasları və qaydası

4.1. Elmi Şura üzvünün səlahiyyətlərinə aşağıdakı hallarda xitam verilir:

4.1.1. Elmi Şuranın həmin tərkibinin səlahiyyət müddəti başa çatdıqda;

4.1.2. Elmi Şura üzvü Elmi Şuradan çıxmaq barədə ərizə ilə Elmi Şuranın sədrinə müraciət etdikdə;

4.1.3. Elmi Şura üzvü ardıcıl olaraq 3 (üç) dəfə və ya il ərzində 6 (altı) dəfə üzrsüz səbəbdən Elmi Şuranın iclaslarında iştirak etmədikdə;

4.1.4. Elmi Şura üzvü mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarında, yaxud yerli özünüidarəetmə orqanlarında işə qəbul edildikdə;

4.1.5. Elmi Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verdikdə;

4.1.6. Bu Reqlamentlə müəyyən edilmiş qaydaların pozulmasında təqsirli olduqda.

4.2. Bu Reqlamentin 4.1.1-ci, 4.1.2-ci və 4.1.5-ci bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, Elmi Şura üzvünün səlahiyyətlərinə Elmi Şuranın qərarı ilə xitam verilir.

## 5. Elmi Şuranın üzvlərinin vəzifə və hüquqları

5.1. Elmi Şuranın üzvlərinin aşağıdakı hüquq və vəzifələri vardır:

5.1.1. Elmi Şuranın iclaslarında müntəzəm olaraq iştirak edərək onun reqlamentinə ciddi əməl etmək;

5.1.2. Elmi Şuranın iclasının gündəliyinə və illik iş planına daxil edilən məsələlərlə bağlı təkliflər vermək;

5.1.3. müzakirə olunan məsələlərlə bağlı məruzələr və çıxışlar etmək, təkliflər vermək;

5.1.4. Elmi Şuranın iclaslarında keçirilən gizli və açıq səsvermələrdə iştirak etmək;

5.1.5. Elmi Şuranın tərkibində yaradılan komissiyalara üzv seçilmək və onların işində iştirak etmək;

5.1.6. Elmi Şuranın tərkibinin vaxtından əvvəl buraxılması və yenidən təşkili, həmçinin onun növbədənkənar iclasının keçirilməsi ilə bağlı vəsatət qaldırmaq.

## 6. Yekun müddəalar

6.1. Bu Reqlamentdə əlavə və dəyişikliklər edilməsi təşəbbüsü ilə Elmi Şuranın hər bir üzvü çıxış edə bilər.

6.2. Bu Reqlamentdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmayan dəyişikliklərin edilməsi yolverilməzdir.

6.3. Bu Reqlament Elmi Şuranın iclasında təsdiq edildiyi gündən qüvvəyə minir. Reqlamentə əlavə və dəyişikliklər Elmi Şuranın qərarı ilə təsdiq edilir.

Reqlament Elmi Şuranın "09" 06
2023-cü il tarixli iclasında qəbul edilmişdir.

Elmi Şuranın katibi: [signature] V.H.Rzayeva